# Qərbi Azərbaycan reallıqları: dünənimiz, bu günümüz və işıqlı sabahımız

*Uzun illərdir ki, ermənilər ərazilərimizi mənimsəyib, mədəni irsimizə ciddi ziyan vurub, yüzlərlə tarixi-mədəni abidəmizi məhv ediblər. Bu proseslərin fonunda Qərbi Azərbaycana qayıdış məsələsi dövlətimizin prioritetlərindəndir. Qərbi azərbaycanlıların tarixi torpaqlarına qayıdışı istiqamətində müxtəlif layihələr və tədbirlər həyata keçirilir.*

*Mövzu ilə bağlı* ***filologiya elmləri doktoru, professor, Prezident təqaüdçüsü, ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, tanınmış şairə Mabirə Hüseynova*** *ilə həmsöhbət olduq:*

**–Mahirə xanım, elmi və yaradıcılıq fəaliyyətiniz beynəlxalq əlaqələr, ədəbiyyat, elmi-tədqiqat, Qərbi Azərbaycan mövzusu üzrə araşdırmalar və s. sahələri əhatə edir. Bu istiqamətlərdə gördüyünüz işlər və gələcək planlarınız barədə məlumat verməyinizi istərdik.**

–Azərbaycan Dövlət Pedaqoji Universitetində beynəlxalq əlaqələr üzrə fəaliyyət göstərirəm, Azərbaycan Yazıçılar Birliyinin üzvü, 4 universitetin fəxri professoruyam və Qərbi Azərbaycan mövzusunda bir sıra araşdırmalar aparmışam. Hazırda Qərbi Azərbaycana aid hekayələr toplusu üzərində işləyirəm. 2017-ci ilin may ayında çap olunan ilk kitabım da bu istiqamətdə yazılmış elmi-tədqiqat əsərlərindən biridir. Kitabda Qərbi Azərbaycanda yaşayan el aşıqları və şairlərin yaradıcılığından geniş bəhs olunub. Onların yaratdıqları üslub, poetik ənənələr, istifadə etdikləri qədim toponimlər və dialekt sözləri burada öz əksini tapıb. Kitab həm ədəbi, həm də dilçilik baxımından çox vacib materiallarla zəngindir.



Sonrakı iki kitabım Qərbi Azərbaycan toponimlərinin etimoloji təhlilini əhatə edir. Burada XX əsrdə Dərələyəz bölgəsində urbisid və ekosid aktları xüsusi araşdırılıb. Bu tədqiqatlar həm tarixi, həm də dilçilik aspektlərindən mühüm nəticələr ortaya qoyur. Doğrudur, bu sahədə tədqiqat aparan alimlər var və onların işləri çox dəyərlidir. Amma çalışmışam ki, mövzuya yeni yanaşma gətirim. Əsas məqsədim artıq deyilmiş fikirlərin təkrarı yox, yeni tədqiqat sahələri açmaq və indiyə qədər toxunulmayan məsələləri ön plana çəkməkdir.

**–Qərbi Azərbaycan probleminin yaranma səbəbləri, azərbaycanlılara qarşı həyata keçirilən deportasiyalar, mədəni irsimizə vurulan ziyan və hazırkı reallıqlar barədə fikirləriniz maraqlıdır. Ulu öndər Heydər Əliyevin Qərbi Azərbaycan məsələsinə yanaşması və bu istiqamətdə atdığı addımlar nə kimi nəticələr verib?**

–Qərbi Azərbaycan məsələsinin əsası ulu öndər Heydər Əliyev tərəfindən 1997-ci ildə qoyulmuşdur. Elm adamları ilə söhbətlərinin birində Heydər Əliyev demişdi ki, dədə-baba torpaqlarımız, həmin ərazilərdə yaşayan əhali haqqında məlumatlar mütləq yazıya alınmalıdır. Bununla da Qərbi Azərbaycan problemi gündəmə gəlmişdir. Əslində bu, 200 ildən artıqdır davam etsə də, XX əsrdə daha da kəskinləşmiş, xalqımıza qarşı üç dəfə kütləvi deportasiya həyata keçirilmişdir. Qərbi Azərbaycandan olan həmyerlilərimizin ilk kütləvi deportasiyası XX əsrin əvvəllərində baş vermiş, daha sonra 1948-1953-cü illərdə, ən sonda isə 1987-1989-cu illərdə xalqımız doğma torpaqlarından zorla çıxarılmışdır. Bu proseslər təkcə fiziki məcburi köçlə məhdudlaşmamış, həm də mədəni və sosial basqılarla müşayiət olunmuşdur. Köç prosesi 5 mərhələdən ibarət olmuşdur və bu mərhələlərin hər biri arasında da deportasiyalar baş vermişdir. İnsanlar sistematik şəkildə sıxışdırılmış, təhsil imkanlarından məhrum edilmiş, məktəblər və ali təhsil ocaqları bağlanmışdır. İrəvanda 100 illik tarixə malik İrəvan Azərbaycan Pedaqoji Məktəbi də bu siyasətin qurbanı olmuşdur. 1967-ci ildə əhali buradan köçmək məcburiyyətində qalmışdır. Onların bir qismi Göygöl, Şəki, Qax və digər bölgələrə köç edərək burada yeni yaşayış məskənləri qurmuş, təsərrüfatlar yaratmışlar.

**–Qeyd etdiniz ki, Qərbi azərbaycanlıların deportasiyası təkcə məcburi köçlə məhdudlaşmayıb, həm də mədəni və sosial basqılarla müşayiət olunub. Bu basqılar hansı formalarda özünü göstərib?**

–Erməni tarixçisi Zaven Korkodyanın yazdığına görə, 1831-1931-ci illər arasında indiki Ermənistan ərazisində 575 min azərbaycanlı yaşayıb. Lakin yüz minlərlə azərbaycanlı ya zorla qovulub, ya da qətlə yetirilib. Yalnız sağ qalan 110 min nəfər həmin ərazilərdə yaşamağa davam edib. Lakin bu da müvəqqəti olub, sonrakı deportasiyalar nəticəsində azərbaycanlı əhali demək olar ki, tamamilə ərazidən çıxarılıb.

Tarix boyu bu torpaqlarda azərbaycanlılara qarşı dəhşətli cinayətlər törədilib. Məsələn, Haqqıxlı kəndinin əhalisini iclas keçiriləcək deyə aldadaraq bir yerə yığıb qapıları bağlayıb və od vuraraq diri-diri yandırıblar. Çöldə təsərrüfat işləri ilə məşğul olan bəzi sakinlər sağ qalsa da, kəndin böyük hissəsi məhv edilib.

Dərələyəzdə isə yerli əhalinin bir hissəsini meydana toplayaraq, kəndin qalan hissələrini şumlayıb və müqavimət göstərənləri güllələyiblər. Sağ qalanlar ya məcburi şəkildə Şimali Azərbaycana gəlib, ya da ətraf kəndlərdə sığınacaq tapıblar.

Ermənilər deportasiya və etnik təmizləmə siyasətini müxtəlif bəhanələrlə həyata keçiriblər. Məsələn, bəzi kəndlər "magistral yol salınacaq" səbəbilə boşaldılıb, digər yerlərdə isə əhalinin az olması bəhanəsi ilə köçürülüb. Bu proseslər 200 ildən çox davam edib və ən sonuncu deportasiya dalğası 1987-1989-cu illərdə baş verib. Bu hadisələr Azərbaycan xalqının tarixində böyük faciədir və ədalətin bərpası üçün bu məsələ beynəlxalq səviyyədə həll edilməlidir.

XX əsrin əvvəllərində (1903-cü ildə) çar Rusiyası tərəfindən İrəvan xəritəsi qeydə alınmışdı, bu səbəbdən də onlar məhz XX əsrin sonlarında özlərinin burada yaşadıqlarını sübut etməyə çalışıblar. Məhz rusların köməyi ilə İrəvan kimi böyük və tarixi bir şəhəri özlərinə paytaxt elan ediblər. Elə o zamanlardan da Zəngəzur, Dərələyəz, Zəngibasar kimi bir çox ərazilərimizin adları dəyişdirilib.

**–Bu proses necə və hansı üsullarla həyata keçirilib? Qədim toponimlərin dəyişdirilməsi, qayaüstü yazılara müdaxilə, milli mətbəximizin mənimsənilməsi ilə bağlı hansı tarixi və elmi sübutlar var? Bu həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün hansı addımlar atılır?**

–Ermənilər təkcə torpaqlarımızı deyil, mədəni irsimizi də mənimsəyiblər. Bəzən bunu dini motivlərə bağlayır, bəzən isə guya bu adların fərqli mənşədən gəldiyini iddia edirlər. Lakin bu, erməniləşdirmə siyasətinin əsasıdır. Hətta qədim qayaüstü yazılarımızı belə özlərininki kimi təqdim etməyə çalışırlar. Qobustan qayaüstü rəsmlərində ermənilərin heç bir izi olmadığı halda, bunu öz tarixləri kimi tanıtmağa cəhd ediblər. Eyni prosesi yemək adlarımızı, musiqimizi, etnoqrafiyamızı, məişət mədəniyyətimizi mənimsəməklə də həyata keçiriblər. Məsələn, bir dəfə Avropa ölkələrindən birində bir restoranın üzərində "Xaş" yazıldığını gördüm. Fikirləşdim ki, burada Azərbaycan mətbəxinə aid yeməklər var, ona görə də içəri daxil oldum. Ancaq məlum oldu ki, restoran ermənilərə məxsusdur və onlar xaşı, xəngəli, lavaşı, dolmanı öz yeməkləri kimi təqdim edirlər. Halbuki bunların heç biri erməni mətbəxinə aid deyil. Bütün bu mədəni dəyərlərimizi ədəbiyyatımızdan, etnoqrafiyamızdan və tariximizdən oğurlayıblar.

Ermənilər öz adlarını da bu torpaqlara uyğunlaşdırmaq üçün dəyişiblər. Məsələn, Köçəryan, Dəmirçiyan, Ağambekyan kimi soyadlar Azərbaycan türklərinin adları ilə oxşardır. Hətta bu gün də onların universitetlərində bəzi tarixçilər bu oğurluq siyasətini elmi yollarla əsaslandırmağa çalışırlar. Lakin tarix onların əleyhinə işləyir.

Əvvəldə erməni tarixçisi Korkodyandan misal gətirdim, onun Tbilisidə saxlanılan mənbələrində göstərilir ki, 1935-ci il yanvarın 3-də qəbul edilən qərara əsasən Ermənistanda 2310 toponimin adı dəyişdirilib. Bunlardan 2000-i türk mənşəli idi. Bu da həmin torpaqların əsl sahiblərinin kim olduğunu açıq şəkildə sübut edir. Əgər bu torpaqlar tarixən ermənilərə məxsus idisə, o zaman adları niyə dəyişdirilirdi?

Əslində bu əhalinin adları belə özlərinə aid deyil, bu, "ərmənlər" sözünün təhrif olunmuş halıdır. Nizaminin "İskəndərnamə"sində də yazılır ki, onlar sadəcə kiçik hay tayfalarıdır ki, bu sözdəki "h" hərfi belə onlara deyil, qədim şumerlərə aiddir. Hazırda erməni sözlərinin kökünü araşdırıram və məlum olur ki, onların sözlərinin 90 faizi özlərinin deyil.

İrəvan da daxil olmaqla, bu bölgələr Azərbaycan türklərinin qədim yurd yerləri olub. Ermənilərin həyata keçirdikləri bu siyasət onların burada köklü xalq deyil, sonradan gəlmə və zorla yerləşdirilmiş bir icma olduqlarını sübut edir.

**–2022-ci ildə Qərbi Azərbaycan İcmasının yaradılması və Prezident İlham Əliyevin bu məsələyə xüsusi önəm verməsi tarixi torpaqlara qayıdış prosesini gündəmə gətirib. Sizcə, Qərbi Azərbaycana qayıdışın hüquqi, siyasi və tarixi əsasları nələrdir? Bu prosesin sülh yolu ilə reallaşması üçün hansı addımlar atılmalıdır?**

–Qərbi Azərbaycan məsələsinin kökü çox qədim olsa da, uzun illər ərzində Qarabağ problemi ön planda idi. Qarabağ məsələsinin həlli prioritet olduğu üçün Qərbi Azərbaycan mövzusu arxa planda qalmışdı. Lakin 2022-ci ildə rəsmi olaraq Qərbi Azərbaycan İcması yaradıldı. Həmin ilin 24 dekabrında Prezident İlham Əliyev İcmanın yeni binasının açılışını etdi. Bununla Azərbaycan dövləti rəsmi şəkildə bütün dünyaya bəyan etdi ki, Qərbi Azərbaycan bizim tarixi torpaqlarımızdır və biz o torpaqlara qayıdacağıq - mütləq qayıdacağıq. Qərbi Azərbaycanın coğrafiyası, tarixi, etnoqrafiyası və toponimləri barədə geniş məlumat verdi, həmin bölgədən olan ziyalıların fikirlərini dinlədi.

Azərbaycan xalqı doğulub boya-başa çatdığı torpaqlara qayıtmaq istəyir və ölkə başçımız da bu istəyin təmin olunması üçün siyasi iradə nümayiş etdirir. Bu, dövlət və xalq birliyinin bariz nümunəsidir.

Qayıdış məsələsində əsas məqam sülh yolu ilə dinc şəkildə həyata keçirilməsidir. Prezident İlham Əliyev bu mövzuda qəti mövqe bildirərək vurğuladı ki, biz Qərbi Azərbaycana müharibə yolu ilə yox, beynəlxalq hüquqa əsaslanan, sülh prinsiplərinə uyğun şəkildə qayıtmağı planlaşdırırıq. Bu, həm tarixi ədalətin bərpası, həm də regional sabitliyin qorunması baxımından mühüm addımdır. Tarixi mənbələr, arxiv sənədləri, xəritələr və çoxsaylı sübutlar göstərir ki, Qərbi Azərbaycan torpaqları əsrlər boyu Azərbaycan xalqına məxsus olub. Bu, təkcə tarixi fakt deyil, həm də beynəlxalq hüquq çərçivəsində təsdiq olunmuş həqiqətdir. Ona görə də Azərbaycan xalqının həmin torpaqlara qayıtmaq hüququ var və bu, sülh yolu ilə hüquqi çərçivədə həyata keçirilməlidir.




Beynəlxalq hüququn bu prosesi dəstəkləməsi də çox vacibdir. Keçmiş Qarabağ münaqişəsi zamanı BMT Təhlükəsizlik Şurası Azərbaycanın suverenliyini tanıyan və işğala son qoyulmasını tələb edən dörd qətnamə qəbul etmişdi. Qərbi Azərbaycan məsələsində də hüquqi əsaslar mövcuddur və beynəlxalq ictimaiyyət ədaləti bərpa etməlidir. Lakin keçmişdə biz informasiya mübarizəsində müəyyən boşluqlara yol vermişdik. Dünyaya öz haqq səsimizi lazımi səviyyədə çatdırmamışdıq. İndi vəziyyət dəyişib, artıq Qərbi Azərbaycanla bağlı çoxsaylı elmi əsərlər yazılır, tədqiqatlar aparılır, beynəlxalq tribunalarda tarixi faktlar təqdim edilir. Bu prosesə Azərbaycan dövləti, alimlər, ziyalılar və diaspor təşkilatları öz töhfələrini verirlər.

Təəssüf ki, ermənilər zaman-zaman Qərbi Azərbaycandakı mədəni və dini irsimizə qarşı vandalizm törədiblər. Bu yaxınlarda yayılan görüntülərdən məlum oldu ki, İrəvandakı qədim məscidlərdən biri - Təpəbaşı məscidi yararsız hala salınaraq şərab zavoduna çevrilib. Bu, təkcə islam dünyasına qarşı hörmətsizlik deyil, ümumilikdə mədəni irsin məhv edilməsi deməkdir. Bununla belə, Azərbaycan dövləti prinsipial mövqe nümayiş etdirir və məsələnin həlli üçün sistemli şəkildə hərəkət edir. Prezident İlham Əliyev vurğulayıb ki, biz Qərbi Azərbaycana sülh yolu ilə beynəlxalq hüququn imkanları çərçivəsində qayıdacağıq.

**–Azərbaycan dövləti və diasporu Qərbi Azərbaycan məsələsinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində mühüm işlər görür. Lakin bəzi dairələr bu həqiqətləri təhrif, tarixi və hüquqi gerçəklikləri inkar etməyə çalışır. Bu barədə nə deyə bilərsiniz?**

–Qərbi Azərbaycan məsələsinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində işlər genişlənir, müxtəlif ölkələrdə Qərbi Azərbaycan tarixi və azərbaycanlıların məcburi köçürülməsi ilə bağlı bir çox tədbirlər keçirilir. Lakin bəzi dairələr bu həqiqətləri təhrif etməyə çalışırlar. Məsələn, Fransanın Ermənistandakı səfiri sosial şəbəkədə reallıqdan tamamilə uzaq iddia irəli sürərək guya Qərbi Azərbaycanın Cənubi Azərbaycanda bir vilayət olduğunu və Qərbi azərbaycanlıların yalnız orada yaşamalı olduğunu bildirib. Bu cür açıqlamalar beynəlxalq hüquq və tarixi faktlarla ziddiyyət təşkil edir və qərəzli mövqedən irəli gəlir. Bilmədən danışmaq asandır. Fransada Marsel şəhərində böyük erməni icması məskunlaşıb. Əgər bu qədər qayğı göstərmək istəyirlərsə, həmin icmanı Fransanın hansısa bölgəsində yerləşdirə bilərlər.

Qərbi Azərbaycana qayıdış məsələsi həm tarixi ədalətin, həm də beynəlxalq hüququn və insan haqlarının bərpasıdır. Azərbaycan dövləti və xalqı öz dədə-baba torpaqlarına qayıtmaq istəyir, biz bu yola çıxmışıq və bu yolun son mənzili İrəvandır.

**–Siz elmi araşdırmalar, ictimai fəaliyyət və yaradıcılığı uğurla birləşdirirsiniz. Qərbi Azərbaycan mövzusunda apardığınız araşdırmalar, arxiv sənədləri və köhnə xəritələr üzərindəki işləriniz hansı tarixi həqiqətləri üzə çıxarıb? Eyni zamanda poeziya, xüsusilə bayatılar sizin üçün hansı mənəvi dəyəri daşıyır? Yaradıcılıq ilə elmi fəaliyyət arasında balansı necə qoruyursunuz?**

–Bəziləri düşünə bilər ki, elmi araşdırmalar, ictimai işlər içində insanın yaradıcı fəaliyyətə vaxtı qalmaz. Amma yaradıcılıq bir sifarişdir, o, daxildən gəlir və insan onu yerinə yetirməlidir. İstər gecənin sakitliyində, istərsə də səyahət zamanı, fərq etməz, ilham gələndə yazmaq qaçılmazdır.

Qərbi Azərbaycan mövzusunda apardığım araşdırmalarda xüsusilə arxiv sənədləri, köhnə xəritələr və elmi mənbələrdən əldə olunan yeni sübutlar var. Bu araşdırmaların hər biri təsdiq edir ki, Qərbi Azərbaycan torpaqları əsrlər boyu azərbaycanlıların yurdu olub. Bu həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq isə bizim üzərimizə düşən əsas vəzifələrdəndir.

Ən son "Azərbaycan və özbək türkcələrinin müqayisəli leksikası" adlı kitab üzərində işləyirdim və artıq onu tamamlamışam, çapa hazırlanır. Bayatılar mənim üçün anamdan gələn, onun sinəsindən süzülüb mənim qanıma hopan mənəvi mirasdır. Onlar gilə-gilə, damla-damla süzülərək formalaşıb. Mən bayatıları toplayıb üç kitab şəklində hazırlamışam. Bayatılar mənim üçün həm nostalji, həm də yaradıcılıq baxımından dəyərlidir. Ən son kitabım isə fevralın 7-də nəşr olundu.

*Çeşməli, sulu dağların,*
*Suyu say-seçmə dağların*
*Ay qərib, ruhun oynadar,*
*Yanından keçmə dağların.*

**–Mahirə xanım, siz həm Qərbi Azərbaycan Araşdırmalar Mərkəzinin, həm də Türkoloji Araşdırmalar Mərkəzinin yaradılmasında və fəaliyyət göstərməsində mühüm rol oynamısınız. Bu mərkəzlər elmi və mədəni əlaqələrin inkişafına xüsusilə Türk dünyası ilə əməkdaşlığa hansı töhfələri verir?**

–Bizim fəaliyyətimiz bir neçə əsas istiqaməti əhatə edir: prorektorluq çərçivəsində fəaliyyət göstərən iki böyük mərkəz mövcuddur. Onlardan biri Qərbi Azərbaycan Araşdırmalar Mərkəzidir. Bu mərkəzə tarix üzrə fəlsəfə doktoru Leyla Cəlalova rəhbərlik edir. Mərkəzin özünəməxsus nəşrləri mövcuddur və bütün hüquqi prosedurlardan keçərək rəsmi fəaliyyət göstərir. Mərkəzin iki əsas nəşri var: "İz" jurnalı və "Yurdun səsi". "İz" jurnalı dörd aydan bir nəşr edilir, "Yurdun səsi" isə hər ay oxucuların ixtiyarına verilir. Bundan əlavə, müxtəlif böyük tədbirlərin təşkili, elmi məqalələrin hazırlanması və yayımlanması da əsas istiqamətlərindəndir. Yaxın günlərdə mərkəzin rəsmi saytı da fəaliyyətə başlayacaq.

Türkoloji Araşdırmalar Mərkəzi isə 2024-cü ildən fəaliyyət göstərir və geniş struktura malikdir. Mərkəz üç böyük bölmədən (dilçilik, ədəbiyyatşünaslıq, tarix və etnoqrafiya) ibarətdir və fəaliyyəti Türkiyə, Azərbaycan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Qaqauz Yeri kimi türk dövlətlərini və xalqlarını əhatə edir. Mərkəz türk dünyasının elmi və mədəni əlaqələrinin inkişaf etdirilməsi, inteqrasiya proseslərinin gücləndirilməsi və ortaq tarixi irsin tədqiqi ilə məşğuldur.

Türkologiya sahəsində geniş bölmələr mövcuddur. Bu təşkilatlar təkcə türk dövlətləri ilə deyil, eləcə də Macarıstan, Polşa və digər ölkələrlə də əlaqələr qururlar. Xüsusilə Türkoloji Araşdırmalar Mərkəzi vasitəsilə akademik və elmi əməkdaşlıqlar həyata keçirilir.

Türkologiyanın qarşılaşdığı problemlərin qlobal səviyyədə müzakirəsi üçün geniş əlaqələr qurulub. Əməkdaşlıq çərçivəsində Özbəkistan, Qazaxıstan və Türkiyə ilə ciddi fikir mübadiləsi aparılır. Məsələn, Tatarıstanın Kazan Federal Universiteti bu istiqamətdə əsas mərkəzlərdən biridir və islam birliyi universitetləri ilə əlaqəli şəkildə fəaliyyət göstərir. Ufada isə Başqırdıstanın Türkoloji Araşdırmaları bölümü ilə sıx əməkdaşlıq mövcuddur.

2026-cı ildə I Türkoloji Qurultayın 100 illiyi qeyd olunacaq. Xüsusi vurğulanmalıdır ki, 1926-cı ildə qəbul edilən yeni əlifba məhz Bakıda təsdiq olunmuşdur. Bu, şəhərin türkologiya araşdırmalarında mərkəzi rolunu bir daha təsdiqləyir. Sözügedən tarixi mirasa əsaslanaraq gələcəkdə də Bakı Türkoloji Araşdırmalar Mərkəzi üçün əsas platformalardan biri olacaq. Həmçinin tədbirdə dünya türklərinin iştirakı gözlənilir və bu, türkologiya sahəsində yeni mərhələnin başlanğıcı kimi qəbul edilir.

**–Qərbi Azərbaycan məsələsinin dərsliklərə daxil edilməsi və gənc nəsillərə bu mövzuda düzgün məlumatların çatdırılması istiqamətində işlər gələcəkdə necə inkişaf edəcək?**

–Qərbi Azərbaycan Araşdırmalar Mərkəzinin fəaliyyəti spesifik sahələrlə məhdudlaşmır, ümumi və geniş istiqamətləri əhatə edir. Xüsusilə Qərbi Azərbaycanın müxtəlif mahal və kəndlərinin tarixinə dair demoqrafik və mədəni araşdırmalar aparılır. Bəzi hallarda həmin bölgələrin yalnız yer adları və ayrı-ayrı ailə kökləri qalsa da, bu sahədə tədqiqatlar davam etdirilir.

Qərbi Azərbaycan Araşdırmalar Mərkəzi müxtəlif tədqiqatlar aparır və bu araşdırmaların mərkəzində həm yerli, həm də beynəlxalq mənbələr dayanır. Dünya səyyahlarının - məsələn, Şopenin, Smirnovun və ya digər fransız, isveç, alman və rus tədqiqatçılarının Qərbi Azərbaycanla bağlı qeydləri diqqətlə öyrənilir. Xüsusilə Qərbi Azərbaycanın tarixi toponimləri, xəritələri araşdırılır və bu kontekstdə 1903-cü ilə aid rus xəritələri mühüm əhəmiyyət kəsb edir. Həmin xəritələrdə Azərbaycanın türk mənşəli yer adları açıq şəkildə görünür.

O dövrdə bir çox kəndin adı və ya tayfanın kimliyi itirildi - kəndlər ya tamamilə dağıdıldı, ya da əhalisi başqa bölgələrə köçürüldü. Məsələn, 1918-ci ildən etibarən yüzlərlə Qərbi Azərbaycan ailəsi Özbəkistana köç etməyə məcbur qaldı. Burada məskunlaşan ailələr zaman keçdikcə bu torpaqlara alışsalar da, yaşlı nəslin vətən həsrəti ömürlərinin sonuna qədər davam etdi. Bu, tarixi faciədir. Bununla belə, illər sonra Özbəkistanda Qərbi Azərbaycan İcması yenidən təşkilatlanmağa başladı. Burada Qərbi Azərbaycan İcması Birliyi yaradıldı. Bu, həm tarixin yaşadılması, həm də gələcək araşdırmalar üçün mühümdür.

Bu yaxınlarda Asiya Parlament Assambleyasında Qərbi Azərbaycanla bağlı sənəd qəbul edilmişdir. Bu sənəd, məsələnin beynəlxalq hüquqi baxımdan qiymətləndirilməsini təmin edir. Həmçinin Milli Məclisdə keçirilən dinləmələrə tanınmış ictimai xadimlər və iqtisadçılar dəvət olunurlar. Dinləmələrdə, hətta hər bir ailənin təsərrüfatı da nəzərə alınaraq məsələlər müzakirə edilir. Bizim bu məsələyə müdaxilə etmək və prosesin hüquqi tərəflərini təmin etmək hüququmuz var. Qərbi azərbaycanlıların vəziyyəti beynəlxalq standartlara uyğun şəkildə tənzimlənir.

Həmçinin Qərbi Azərbaycan məsələsinin dərsliklərə daxil edilməsi fikri də gündəmə gəlir. Bu, gənc nəsillərə bu mövzuda düzgün məlumatların çatdırılması üçün vacibdir. Biz Qərbi Azərbaycanla bağlı beynəlxalq səviyyədə olimpiada təşkil etməyi planlaşdırırıq. Bu, həm Qərbi Azərbaycan cəmiyyəti üçün bir göstərici, həm də bu məsələnin daha geniş miqyasda tanıdılması üçün mühüm tədbir olacaq. Təəssüf ki, Qərbi Azərbaycan haqqında məlumatlılıq çox aşağı səviyyədədir. Bu, bizim qarşılaşdığımız böyük çətinliklərdən biridir. Ancaq biz gələcəkdə Qərbi Azərbaycanı beynəlxalq platformada daha geniş tanıdacağıq. Təşkilatımızda bir çox təşəbbüsləri reallaşdıracağıq. İlk növbədə, orta məktəb dərsliklərinə Qərbi Azərbaycan ədəbiyyatı, coğrafiyası, tarixi, adət-ənənələri və digər mövzuların daxil edilməsi nəzərdə tutulur. Bu addım bizim özümüzü tanımamız və dünya ilə daha möhkəm əlaqələr qurmağımız üçün vacibdir. Bundan əlavə, bir sıra Azərbaycan universitetlərində, o cümlədən Bakı Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti və Pedaqoji Universitetdə Qərbi Azərbaycanla bağlı fənlərin tədrisinə başlanılıb. Burada Naxçıvan Dövlət Universitetini mütləq vurğulamalıyam. Qərbi Azərbaycan məsələsinin təbliği və tədqiqi istiqamətində Naxçıvan Dövlət Universiteti mühüm təşəbbüslər göstərmişdir. Universitetin rektoru Elbrus İsayevin təşəbbüsü və təşkilatçılığı ilə 2023 və 2024-cü illərdə Naxçıvan Dövlət Universitetində böyük bir konqres festivalı keçirildi. Naxçıvan ərazisində kompakt şəkildə yaşayan Qərbi azərbaycanlıların bu tədbirdə iştirakı mühüm əhəmiyyət daşıdı. Bu konqres festivalında 20 mindən çox insan iştirak etmişdi. Dünyanın 12 universitetindən nümayəndələr, o cümlədən rektorlar və alimlər, həmçinin Azərbaycanın müxtəlif universitetlərindən rektorlar, millət vəkilləri və digər yüksək səviyyəli şəxslər tədbirə qatılmış və çıxışlar etmişlər.

Konqresin sonunda Zəngəzur parkında mükafatlandırma mərasimi keçirilmişdir. Burada hər bir çadır özünəməxsus bir mədəniyyət və ənənəni ifadə edirdi, bu da iştirakçılara Qərbi Azərbaycan mədəniyyətinin zənginliyini göstərmək üçün əsl fürsət oldu. Bu cür tədbirlər həm yerli, həm də beynəlxalq səviyyədə Qərbi Azərbaycan məsələsinin daha geniş tanıdılmasına xidmət edir və təşəbbüslər Qərbi Azərbaycan mədəniyyətinin və tarixinin tədrisi və yayılması istiqamətində çox mühüm addımlar olaraq dəyərləndirilir.

Milli Məclisdə Qərbi azərbaycanlılar bağlı Təşəbbüs Qrupu dünya miqyasında BMT, Avropa İttifaqı və digər beynəlxalq təşkilatlar qarşısında Qərbi Azərbaycan İcmasının problemlərini çatdıran və dəstəkləyən bir qrup olaraq fəaliyyət göstərir. Milli Məclisdə Toponimiya Komissiyasının fəaliyyəti də çox vacibdir. Qərbi Azərbaycanla bağlı böyük bir ensiklopediyanın tərtibi üzərində iş gedir. Ensiklopediyada Qərbi Azərbaycana aid bütün məlumatlar toplanacaq və hərtərəfli şəkildə işıqlandırılacaq. Məlumat çoxdur və akademik, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, Toponimiya Komissiyasının sədri İsa Həbibbəyli bu layihənin reallaşmasını çox gözəl şəkildə irəlilədib. Ensiklopediyanın 10 cilddən ibarət olması planlaşdırılır, birinci cildi artıq hazırdır və tezliklə təqdim olunacaq. Bu layihə Qərbi Azərbaycan haqqında məlumatı olmayanların tam bilik əldə etmələrinə imkan yaradacaq.

Qərbi Azərbaycandan olan digər ziyalıların tanıdılması ilə bağlı da bir çox işlər görülür. Cənab Prezidentin bu il fevralın 14-də imzaladığı Sərəncamla Mirzə Qədim İrəvaninin 200 illiyi münasibətilə böyük bir tədbir keçirilmişdir. Bu, çox böyük bir işdir və o mühitin yetişdirdiyi, o mühiti formalaşdıran ziyalılar tərəfindən həyata keçirilən təşəbbüsdür.

Qərbi Azərbaycanda xüsusilə İrəvanda fəaliyyət göstərmiş azərbaycanlı kişi məktəbləri, eləcə də digər təhsil müəssisələri çox önəmlidir. Bu müəssisələrin fəaliyyəti Qərbi Azərbaycan mədəniyyətinin yaşadılması mühüm rol oynayıb. Bizim məqsədimiz İrəvanda təhsil almış, ədəbi mühit yaratmış ziyalıları tanıtmaq və onların fəaliyyətlərini işıqlandırmaqdır. Çoxsaylı tədbirlər, kitab təqdimatları və müxtəlif layihələr bu məqsədə xidmət edir. Vahid Novruzovun atası Tapdıq Novruzovun da adı bu siyahıda xüsusi yer tutur. Məsələn, "Yaşanmış ömür" adlı kitabda zəhmətkeş ziyalının həyatı və fəaliyyəti öz əksini tapıb. Bu kitabı oxuyan hər bir şəxs o əraziləri, dağları və dərələri daha yaxından tanıyacaq, həmin dövrün ədəbi mühitinə səyahət edəcək.

Mətbuat bizim fikirlərimizin geniş yayılması və Qərbi Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması üçün əvəzsiz vasitədir. Bir çox mətbuat orqanlarının fəaliyyətimizi işıqlandırması işlərimizin daha geniş auditoriyaya çatmasına kömək edir. Onların dəstəyi ilə biz hər bir tədbirimizi, layihəmizi daha çox insana çatdıra bilirik. Mən mətbuat orqanlarına, televiziya kanallarına minnətdarlığımı bildirirəm. Bu işlər Qarabağ işğaldan azad edildikdən sonra daha da sürətlənib.

**–Ətraflı söhbətə görə təşəkkür edirik.**

–Sağ olun.

**Müsahibəni apardı:**
**Ləman TƏHMƏZ,**
**"Respublika".**